# NAXÇIVAN MR FLORASININ *CRITICALLY ENDANGERED* STATUSLU NÖVLƏRİ VƏ ONLARIN MÜHAFİZƏ İMKANLARI

**Tariyel Talıbov*, Ənvər İbrahimov**

*AR ETN Bioresurslar İnstitutu (Naxçıvan)*
*Naxçıvan Dövlət Universiteti*
** t_talibov@mail.ru*

Son dövrlər Yer kürəsində baş verən qlobal iqlim dəyişkənlikləri təbiətdə ciddi fəsadlar yaratmaqda davam edir, belə ki, yayılma əraziləri və ya biotoplarının kiçilməsi, yaşayış yerinin keyfiyyətcə dəyişməsi, deqradasiyaya məruz qalması, qida obyektlərinin azalması kimi faktorlar növlərin yaşamaq imkanının

böhran həddə olduğundan xəbər verir. Əgər növbir neçə illərdir rast gəlinmir və ola bilsin ki, insan əli çatmayan təbii landşaftlarda qalmışdırsa, həmçinin çox yaxın bir gələcəkdə məhv olmaq təhlükəsi altındadırsa, onda növ *Critically Endangered* (CR) statusuna daxil edilir. Aparılan floristik tədqiqatlar zamanı tədqiq edilən növün populyasiyalarının kəskin zərər görə biləcəyi ehtimal edildikdə də bu kateqoriyaya aid edilə bilər. Beləliklə, Naxçıvan MR florasının təbiətdəki müasir vəziyyəti böhran həddində olan və ya nəslinin kəsildiyi ehtimal edilən 3021 ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu növündən 27 növü *Critically endangered* (CR) statusuna aiddir. Həmin növlərin optimal mühafizə imkanları araşdırılmışdır. Qeyd edək ki, muxtar respublikanın bütün mühafizə statuslu əraziləri Həsən Əliyev adına Zəngəzur Milli Parkına (ZMP) tabe edilmişdir.

1. *Epipactis veratrifolia* Boiss. et Hohen. – Asırqalyarpaq mürgəkotu Naxçıvan MR-in “Qırmızı Kitab”ında (NaxQK) VU C2 statuslu hesab edilmişdir, lakin keçən 13 il ərzində təbiətdə baş verən kəskin dəyişikliklə əlaqədar növlərin də yaşam imkanları azalmışdır. Buna görə də Azərbaycan Respublikasının “Qırmızı Kitab”ının (AzQK) III nəşrində CR B1ab(ii) statusludur. ZMP ərazisində mühafizə olunur.

2. *Nectaros cordumtripedale* (Trautv.) Grossh. – Üçfutlu nektaroskordum. Bu növ NaxQK və AzQK nəşrlərində CR B2ab(ii) statuslu olmuşdur. Zəngəzur silsiləsinin Dəmirlidağ, Qapıcıq və Soyuqdağ ərazisində kiçikqruplarla bitir. ZMP ərazisində mühafizə olunur.

3. *Triticum boeoticum* Boiss. – Yabanı təkdənli buğda. Bu növü üzun zamandır ki, ciddi axtarışlara baxmadan, hələ də bitdiyi Dərələyəz silsiləsinin Qaraquş dağı ərazisində aşkar edə bilməmişik. Ədəbiyyat məlumatlarına əsasən, hələlik NaxQK-da CR A1c; B2ab(İ,İİ)+C2a(i), AzQK-da isə CR A1c+C2a(i) statusu ilə saxlanılmışdır.

4. *Triticum timopheevii* (Zhuk.) Zhuk. – Timofeyev buğdası (*T.araraticum* Jakubz.). NaxQK-da CR A1c; B2ab(i,ii)+C2a(i), AzQK-da CR A1c+C2a(i) statusludur. Bu noun də yabanı halda herbarisi əldə edilməmişdir. Ədəbiyyat materialları əsasında saxlanılmışdır.

5. *Aristolochiabottae* Jaub. & Spach – Bottazarəvəndi. Fəsilənin monotip nümayəndəsi olub, dar bir arealda mövcuddur. NaxQK-da CR B2a statusludur. Əkin sahələrinə qatılan zonalarda tək-tək rast gəlinir. Hər il monitorinqi keçirilir. ZMP ərazisində mühafizə olunur..

6. *Dianthus libanotis* Labill. – Livan qərənfili. AzQK-da CR B2b(iii) statusludur. Naxçıvan MR-də Əshabi-Kəhf və Nəhəcir dağı ərazisində bitir. ZMP ərazisində mühafizə olunacaqdır.

7. *Quercus infectoria* subsp. *veneris* (A.Kern.) Meikle [*Q.araxina* (Taurtv.) Grossh.] – Araz palıdı AzQK-da CRA1ab;B1bc(iii,iv) statusludur. Babək və Ordubad rayonları ərazisində rast gəlinir. ZMP ərazisində mühafizə olunacaqdır.

8. *İberidella trinervia* Boiss. [*Aethionema trinervium* (DC.) Boiss.] – Üçdamarlı iberidella AzQK-da CR B2a statusludur. Yalnız Nax. MR ərazisində rast gəlinir, QK-ya yeni əlavə edilib. ZMP ərazisində mühafizə olunacaqdır.

9. *Physoptychis caspica* (Habi.) V.Boczantzeva – Xəzər bozqovqacı. Unikal görünüşlü, spesifik bitki olub, NaxQK-ya və AzQK-ya CR B2ac(i); C2a(i) statusu ilə daxil edilib. Zəngəzur silsiləsinin Ordubad dağı ərazisindəki hündür zirvələrdə kiçik qruplarla yayılmışdır. ZMP ərazisində mühafizə olunur.

10. *Sorbus roopiana* Bordz. [*Hedlundia roopiana* (Bordz.) Sennikovet Kurtto] – Roop quşarmudu. Az.QK-ya CR B2b(ii,iii) statusu ilə yeni verilib. Şahbuz rayonunun Biçənək və Dərəboğaz ərazilərində rast gəlinir və ZMP ərazisində mühafizə olunacaqdır.

11. *Colutea komarovii* Takht. – Critically endangered. Çox dekorativ kol bitkisidir. Bu növ NaxQK və AzQK nəşrlərində CR B1ac (ii,iv); C2a(i) statuslu olmuşdur. Zəngəzur silsiləsinin Ordubad rayonunun Kotam kəndi ərazisindəki qayalıqlardaki çik qruplarla bitir. ZMP ərazisində mühafizə olunur.

12. *Astragalus caraganae* Fisch.&C.A.Mey. [*A.nachitschevanicus* Rzazade – Naxçıvan gəvəni] – Xöstəkvari paxladən. NaxQK-ya CR B1ac(i), AzQK-ya CR B1ab(i,ii,iii)c(i)+2ab(i,ii,iii)c(i) statusları ilə daxil edilmişdir. Şahbuz rayonunda Naxçıvan dağlıq botaniki-coğrafi ərazisində kiçik qruplar halında bitir. ZMP ərazisində mühafizə olunur.

13. *Astragalus montis-aquilis* Grossh. – Dağ qaraquş paxladəni (Gəvəni). AzQK-ya CR B2c(ii,iv) statusu ilə yeni verilib. Kəngərli rayonu Çalxanqala kəndi ətrafında və Qaraquş dağı ərazisində tək-tək rast gəlinir. ZMP ərazisində mühafizə olunacaqdır.

14. *Astragalus ordubadensis* Grossh. – Ordubad paxladəni (Gəvəni). Ordubad rayonunda Soyuqdağ və Əjnövür dağı ərazisində tək-tək bitir. AzQK-ya CR B2 astatusu ilə yeni verilib. ZMP ərazisində mühafizə olunacaqdır.

15. *Astragalus paradoxus* Bunge – Paradoksal paxladən (Müəmmalı gəvən). NaxQK-ya CR B1ac(i), AzQK-ya CR A2c+3c; B1ac (i)+2ab(i,ii,iii) statusları ilə daxil edilib. Babək rayonunun Nehrəm kəndi, Culfa rayonunun Əlincəçay vadisi və Ordubad rayonunun Çənnab kəndi ətrafında kiçik qruplala bitir. ZMP ərazisində mühafizə olunur.

16. *Astragalus pinetorum* Boiss. (*A.badamliensis* Chalilov) – Şamvari paxladən (Gəvən). NaxQK-da CR B1ac(ii,iv)+C2a(i) və AzQK-da CR A2c+3c;B1ac(i)+2ab(i,ii,iii) statusludur. Şahbuz rayonunun Türkeş, Badamlı kəndi və Kükü̈dağ ətrafında kiçik qruplar halında yayılmışdır. ZMP ərazisində mühafizə olunur.

17. *Oxytropis savellanica* Bunge ex Boiss. – Savellan itiqayığı. AzQK-ya CR B2a statusu ilə yeni verilmişdir. Zəngəzur silsiləsinin Ordubad rayonu ərazisindəki Tivi və Bist kəndləri, Soyuqdağ ərazisində kiçik qruplarla bitir. ZMP ərazisində mühafizə olunacaqdır.

18. *Trifolium bordsilovskyi* Grossh. – Bordzilovski yoncası. AzQK-ya CR B2a statusu ilə yeni daxil edilmişdir. Şahbuz rayonunun Batabat ərazisində kiçik qruplarla bitir. ZMP ərazisində mühafizə olunacaqdır.

19. *Apium nodiflorum* (L.) Lag. (*Helosciadium nodiflorum* (L.) W.D.J.Koch) – Düyünçiçəkli kərəvüz. AzQK-ya CR B2a statusu ilə yeni daxil edilmişdir. Şərur rayonunun Həmzəli və Axura kəndləri ətrafındakı alçaq təpəliklərdə tək-tək rast gəlinir. ZMP ərazisində mühafizə olunacaqdır.

20. *Ferula oopoda* (Boiss. & Buhse) Boiss. – Yumurtavari ilan kölgəsi. NaxQK-ya CR C2a(ii), AzQK-ya CR B2ab(ii,iii); C2a(ii) statusları ilə daxil edilmişdir. Məhdud ərazidə bitir. Babək rayonunda Duzdağ ətrafında tək-tək yayılmışdır. ZMP ərazisində mühafizə olunur.

21. *Jurinea spectabilis* Fisch. &C.A.Mey. – Görkəmli yastıbaş. NaxQK-ya və AzQK-ya CR A2cd statusu ilə daxil edilmişdir. Ordubad rayonunda Soyuqdağ ətrafında, qayaların altında tək-tək bitir. ZMP ərazisində mühafizə olunur.

22. *Podospermum grossheimii* (Lipsch. & Vassilcz.) Kuth. (*Scorzoneragross heimii* Lipsch. et Vassilcz.) – Qrosheym təkəsaqqalı. Bu növ NaxQK-ya CR B1ac(i), AzQK-ya CR B2ab(ii,iii,iv,v) statusları ilə daxil olunmuşdur. Ordubad rayonunda Zəngəzur silsiləsinin Qapıcıq və Soyuqdağ ərazilərində qayalıqlarda rast gəlinir. ZMP ərazisində mühafizə olunur.

23. *Nonea cyanocalyx* M.Pop. ex V.N.Karimov – Göykasacıqlı keçəotu. Bu növ AzQK-da CR B2b(v) statusu ilə ilk dəfə olaraq verilmişdir. Şahbuz rayonunun Batabat gölü Zorbulağın ətrafı və Biçənək aşırımında kiçik qruplarla bitir. ZMP ərazisində mühafizə olunacaqdır.

24. *Onosma gracilis* Trautv. – Zərif onosma (keçiəmcəkotu). Növ AzQK-da CR B1b (i,iii)+2b(ii,iii,v) statusu ilə ilk dəfə olaraq verilmişdir. Ordubad rayonunun Biləv və Tivi kəndləri ərazilərində rast gəlinir. ZMP ərazisində mühafizə olunacaqdır.

25. *Onosma zangezura* T.N.Pop. – Zəngəzur onosması. AzQK-da CR B2b(ii,iii) statusu ilə ilk dəfə olaraq verilmişdir. Culfa rayonunun Ləkətağ və Bəyəhməd kəndləri ərazilərində rast gəlinir. ZMP ərazisində mühafizə olunacaqdır.

26. *Veronica multifida* L. (*V.arceuthobia* Woronow) – Çoxbölümlü bulaqotu. AzQK-da CR B2a statusu ilə ilk dəfə olaraq verilmişdir. ZMP ərazisində mühafizə olunacaqdır.

27. *Ajuga chamaecistus* Ging. ex Benth. – Yapalaq sığırdili (Dirçək). AzQK-da CR B2a statusu ilə ilk dəfə olaraq verilmişdir. ZMP ərazisində mühafizə olunacaqdır.

Artıq Nax.MR Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları ilə birgə qeyd edilən növlərin monitorinqi keçirilməyə başlanılmışdır. Toplanılan materiallar və araşdırma nəticələrinin Naxçıvan Muxtar Respublikasının "Qırmızı Kitab"ının ikinci nəşrinə daxil edilməsinə çalışılacadır. Bundan başqa, bizim təklifimizlə muxtar respublikada nadir növlərin Nəbatat bağında introduksiyası ilə bərabər, onların toxum materiallarının da toplanılması qərarlaşdırılmışdır. Bu zaman ən çox diqqət *Critically endangered* (CR) – Təbiətdəki vəziyyəti böhran həddində olan və ya nəslinin kəsildiyi ehtimal edilən növlərə, Endangered (EN) – Təbiətdə say dinamikası ardıcıl azalmaqda davam edərək, məhv olmaq təhlükəsinə yaxın növlərə və Vulnerable (VU) – Məhdud areal və ya sahələrdə yayılmış, mənfi təsirlərə məruz olan həssas statuslu növlərə veriləcəkdir.